# Ağ Ev səhvini anlayır

## Münxendə ABŞ-nin 3 rəsmisinin İlham Əliyevlə görüşməsi bu ölkənin Azərbaycanla münasibətlərin inkişafında maraqlı olduğunu göstərir

Son hadisələr ABŞ-yə də xatırlatdı ki, istənilən halda Azərbaycana hər hansı bir təzyiqin, təhdidin edilməsi mənasızdır. Çünki tarixinin ən qüdrətli Azərbaycanı heç zaman forpost olmayıb və kiminsə diktəsi ilə qorxaq siyasət yürütməyib. Ölkənin lideri Prezident İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı dünyada etibarlı tərəfdaş kimi tanıdıb, nüfuzunu yüksəldib və bundan sonra da kiminsə ölkəmizə hər hansısa formada təzyiq göstərməsi qeyri-mümkündür.

→ 10

Azərbaycan.- 2024.- 20 fevral, № 38.- S.1, 10.

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Ağ Ev səhvini anlayır

## Münxendə ABŞ-nin 3 rəsmisinin İlham Əliyevlə görüşməsi bu ölkənin Azərbaycanla münasibətlərin inkişafında maraqlı olduğunu göstərir

Ötən həftə Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında iştirakı, qarşı tərəflərin xahişi ilə keçirilən görüşlər bir daha göstərdi ki, Azərbaycanın xarici siyasəti artıq qlobal xarakter daşıyır.

Müstəqil, inamla aparılan və uğurla həyata keçirilən xarici siyasət bərabərhüquqlu münasibətlər, qarşılıqlı hörmət, xoş münasibət, bir-birinin işinə qarışmamaq prinsipləri üzərində qurulub.

Münxen görüşlərində diqqətçəkən xüsusi məqamlar da oldu. Onlardan biri də İlham Əliyevin qarşı tərəfin xahişi ilə 3 ABŞ rəsmisi - dövlət katibi Entoni Blinken, ABŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteyn və ABŞ Prezidentinin iqlim üzrə xüsusi nümayəndəsi Con Kerri ilə görüşlər keçirməsidir. Bu görüşlərdə səslənən fikirlər, təkliflər onu deməyə əsas yaradır ki, ABŞ Azərbaycanla münasibətlərin inkişaf etdirilməsində maraqlıdır. Əgər belə olmasaydı, Entoni Blinken "Azərbaycan və Ermənistan arasında davamlı və ləyaqətli sülhün təmini üçün əlimizdən gələni etmək arzusundayıq. ABŞ bu istiqamətdə faydalı işlər görmüşdür və görməyə davam edəcək" fikrini səsləndirməzdi. Görüşdə Azərbaycanla ikitərəfli əlaqələri çox yüksək qiymətləndirdiklərini qeyd edən Entoni Blinken ikitərəfli münasibətlərin və ölkələrimiz arasında əməkdaşlığın daha da gücləndirilməsi üçün əlverişli imkanların olduğunu vurğulayıb. Azərbaycanın ABŞ ilə ikitərəfli gündəliyi çox yüksək qiymətləndirdiyini deyən İlham Əliyev ölkələrimiz arasında tərəfdaşlığın genişləndirilməsi üçün əlverişli imkanlar olduğunu bildirib. ABŞ dövlət katibi COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb, COP çərçivəsində ABŞ-nin də Azərbaycanla əməkdaşlığa və ölkəmizi bu istiqamətdə dəstəkləməyə hazır olduğunu deyib. Görüş çərçivəsində qarşılıqlı şəkildə belə bir niyyət və iradə ifadə olunub ki, əməkdaşlıq keyfiyyətcə yeni səviyyəyə qaldırılsın.

Lakin etiraf etməliyik ki, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində vasitəçilik missiyasını üzərinə götürmək istəyən ölkələrdən biri də ABŞ idi. Amma bu ölkənin rəsmi dairələri tərəfindən səslənən fikirlər, atılan addımlar göstərdi ki, Ağ Ev yenə də ikibaşlı oyun oynayır. Ötən 3 il ərzində Entoni Blinken dəfələrlə İlham Əliyevə zəng edib Ağ Evin mövqeyini açıqlasa da, ABŞ-nin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin Avropa və Avrasiya altkomitəsində "Dağlıq Qarabağın gələcəyi", eləcə də ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasında Azərbaycan əleyhinə dinləmələrin təşkil olunması bu ölkənin ikiüzlü siyasət yürütdüyünü açıq-aydın göstərirdi.

Ancaq son hadisələr ABŞ-yə də xatırlatdı ki, istənilən halda Azərbaycana hər hansı bir təzyiqin, təhdidin edilməsi mənasızdır. Çünki tarixinin ən qüdrətli Azərbaycanı heç zaman forpost olmayıb və kiminsə diktəsi ilə qorxaq siyasət yürütməyib. Ölkənin lideri Prezident İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı dünyada etibarlı tərəfdaş kimi tanıdıb, nüfuzunu yüksəldib və bundan sonra da kiminsə ölkəmizə hər hansısa formada təzyiq göstərməsi qeyri-mümkündür.

Həqiqət budur ki, İkinci Qarabağ müharibəsindən sonra regionda yeni siyasi-iqtisadi reallıqlar formalaşıb. Bu gün Azərbaycan qalib ölkə olaraq bölgənin gələcək inkişafının təhlükəsizliyi məsələsini də gündəmə gətirib. Artıq bölgədə münaqişə olmadığına görə, sülh danışıqları üçün vasitəçilərə də ehtiyac yoxdur. Bu amil Cənubi Qafqazın iqtisadi inkişafı üçün yeni perspektiv vəd edir. Bu, həm də mühüm hissəsi enerji əməkdaşlığından ibarət ABŞ-Azərbaycan münasibətlərinə yeni impuls verə bilər. Münxen Təhlükəsizlik Konfransında ABŞ-nin 3 rəsmisinin İlham Əliyevlə görüş keçirməsi və burada səslənən fikirlər onu deməyə əsas verir ki, Ağ Ev Azərbaycanla münasibətlərin inkişaf etdirilməsində maraqlıdır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*